Dekabr 2024-cü il

# Hüquq və vergi məsələləri üzrə bülleten

Azərbaycan Respublikası qanunvericiliyində baş vermiş dəyişikliklərə dair yenilənmiş bələdçi




Bu buraxılışda aşağıdakı məsələlərin icmalını diqqətinizə çatdırmaq istərdik:

- Rəqabət Məcəlləsi ilə əlaqədar bir sıra Qərarlar qəbul olunmuşdur.
- Minimum aylıq əmək haqqının məbləği artırılmışdır.
- Taksilər və avtobuslar üçün fərqlənmə nişanlarının formaları təsdiq edilmişdir.
- Mərkəzi Bank: Faiz dəhlizinin parametrləri

## Rəqabət Məcəlləsi ilə əlaqədar bir sıra Qərarlar qəbul olunmuşdur

i. *19 dekabr 2024-cü il tarixində "Təbii inhisar subyektlərinin sahibkarlıq fəaliyyətinin nəticələrinə dair təqdim etdikləri maliyyə hesabatlarının forması və təqdim edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında Qərar ("Qayda") Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən qəbul edilmişdir.*

Qaydaya əsasən, təbii inhisar subyektləri maliyyə hesabatlarını rüblük və illik olaraq müəyyən edilmiş formada rüb bitdikdən sonrakı növbəti ayın 20-dək yazılı və ya elektron qaydada rəqabət orqanına təqdim edilməlidir.

Bu Qayda 1 iyul 2024-cü il tarixindən tətbiq edilir.

ii. *20 dekabr 2024-cü il tarixində "Maliyyə institutlarının hökmran mövqeyinin müəyyən edilməsi şərtləri (bazar payının hədləri və müəyyən edilməsi meyarları)"nin təsdiq edilməsi haqqında Qərar ("Qərar") Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən qəbul olunmuşdur.*

Qərar maliyyə institutlarının bazar paylarının hesablanmasına dair təlimatı özündə əks etdirir.

Hökmran mövqe isə belə müəyyənləşdirilir:

- Maliyyə institutu 50 faiz və ya daha çox bazar payına malikdirsə;
- Hər biri 10 faizdən çox bazar payına malik olan və hərəkətləri birbaşa və ya dolayı yolla birgə xarakter daşıyan maliyyə institutları aşağıdakı hallarda birgə hökmran mövqe tutmuş hesab edilirlər:

- 2 maliyyə institutunun birgə bazar payı 50 faizdən çox olduqda;
- 3 və ya 4 maliyyə institutunun birgə bazar payı 70 faizdən çox olduqda.

Qərar 20 dekabr 2024-cü il tarixində qüvvəyə minmişdir.

iii. *20 dekabr 2024-cü il tarixində "Maliyyə bazarlarında təmərküzləşmədə iştirak edən maliyyə institutları tərəfindən rəqabət orqanından razılıq alınmasını şərtləndirən meyarların (təmərküzləşmədə iştirak edən maliyyə institutlarının aktivlərinin ümumi dəyərinin, ümumi dövriyyəsinin həcmi)"nin təsdiq edilməsi haqqında Qərar ("Qərar") Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən qəbul edilmişdir.*

Qərara əsasən, maliyyə institutları aşağıdakı hallarda təmərküzləşmə üçün rəqabət orqanından razılıq almalıdırlar:

- maliyyə institutlarından biri bazarda hökmran mövqe tutarsa və ya;
- təmərküzləşmə bazarda hökmran mövqeyə malik olan maliyyə institutunun yaradılması ilə nəticələnərsə.

İqtisadi təmərküzləşmə isə bir maliyyə institutunun təmərküzləşmədən əvvəlki sonuncu hesabat ilində aktivlərinin (pul vəsaitləri istisna olmaqla) 20 faizindən çox hissəsinin digər maliyyə institutu tərəfindən əldə edilməsi kimi müəyyən edilir.

Qərar 23 dekabr 2024-cü il tarixində qüvvəyə minmişdir.

iv. *20 dekabr 2024-cü il tarixində "Hökmran mövqedən sui-istifadənin obyektiv zəruriliyinin və səmərəliliyinin qiymətləndirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında Qərar ("Qayda") Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən qəbul edilmişdir.*

Qaydaya əsasən, hökmran mövqedən sui-istifadə halları aşkar edilən müəssisələr öz fəaliyyətlərinin obyektiv zəruriliyini və səmərəliliyini qiymətləndirilməsi ilə bağlı 30 gün müddətində rəqabət komissiyasına vəsatət verə bilərlər.

Müraciətdə sui-istifadənin iqtisadi mahiyyəti, məqsədi, texniki və iqtisadi xüsusiyyətləri, əhatə dairəsi, coğrafi ərazisi və başlanma tarixi kimi təfərrüatlar göstərilməlidir.

Qayda 23 dekabr 2024-cü il tarixində qüvvəyə minmişdir.

v. *18 dekabr 2024-cü il tarixində "Rəqabət orqanının qərarı əsasında bazarın monitorinqinin aparılması, monitorinqin nəticələrinə dair aktın forması və tərtib edilməsi Qaydaları"nın təsdiq edilməsi barədə Qərar ("Qaydalar") Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən qəbul olunmuşdur.*

Qaydalar adətən 30 iş gününə qədər davam edən, lakin zəruri hallarda uzadıla bilən plan üzrə (növbəti) və plandankənar (növbədənkənar) monitorinq də daxil olmaqla, rəqabət orqanı

tərəfindən bazar monitorinqi prosedurlarını özündə əks etdirir. Müəyyən şərtlər daxilində monitorinq 6 aya qədər dayandırıla bilər.

Əlavə olaraq, müvafiq məhsul bazarının satış sahələrinə (topdansatış və pərakəndə satış) və ictimai iaşə yerlərinə gedilməklə aparılan monitorinqlər zamanı sahibkardan heç bir sənəd tələb edilə, habelə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Qanunda nəzərdə tutulmuş hərəkətlər edilə bilməz.

Bazar monitorinqi başa çatdıqdan sonra hərtərəfli hesabat və müvafiq audiovizual materiallar hazırlanır və bununla da, rəqabət orqanı potensial pozuntuların araşdırılıb-araşdırılmaması barədə qərar qəbul etməli və ya pozuntuların aşkar olunmaması qənaətinə gəlməlidir.

Qaydalar 20 dekabr 2024-cü il tarixində qüvvəyə minmişdir.

vi. *18 dekabr 2024-cü il tarixində "Rəqabət komissiyasının yaradılması, tərkibi, rəqabət komissiyası tərəfindən işlərə baxılması və qərarların qəbul edilməsi Qaydaları"nın təsdiq edilməsi barədə Qərar ("Qaydalar") Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən qəbul olunmuşdur.*

Qaydalarda rəqabət orqanı tərəfindən müəyyən edilmiş rəqabət qanunvericiliyinin pozulması hallarının araşdırılması üçün rəqabət komissiyasının yaradılması nəzərdə tutulmuşdur.

Bundan əlavə, Qaydalarda komissiyanın yaradılması, təşkili, komissiya üzvlərinin hüquq və vəzifələri, işə baxılması prosesi, qərarların qəbulu, qərarların və göstərişlərin aidiyyəti tərəflərə təqdim edilməsi qaydası göstərilmişdir.

Qaydalar 20 dekabr 2024-cü il tarixində qüvvəyə minmişdir.

## Minimum aylıq əmək haqqının məbləği artırılmışdır.

*23 dekabr 2024-cü il tarixində "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" Sərəncam ("Sərəncam") Azərbaycan Respublikası Prezidenti tərəfindən qəbul edilmişdir.*

Sərəncama əsasən, minimum aylıq əmək haqqının məbləği 1 yanvar 2025-ci il tarixindən 400 AZN müəyyən edilmişdir.

## Taksilər və avtobuslar üçün fərqlənmə nişanlarının formaları təsdiq edilmişdir

*3 dekabr 2024-cü il tarixində ""Fərqlənmə nişanı"nın, "Xüsusi fərqlənmə nişanı"nın və "Fərqlənmə nişanı"nın alınması üçün ərizə" nin formalarının təsdiq edilməsi haqqında" Qərarı ("Qərar") Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası tərəfindən qəbul edilmişdir.*

Qərara əsasən aşağıdakı nişanların formaları təsdiq edilib:

(i) fərqlənmə nişanı (avtobus və taksilərlə sərnişin daşımalarını həyata keçirən vergi ödəyiciləri üçün);
(ii) xüsusi fərqlənmə nişanı (vergi ödəyicilərinin mülkiyyətində olan nəqliyyat vasitələri ilə öz sahibkarlıq fəaliyyətini təmin etmək məqsədilə işçilərinin və yüklərin daşınması üçün).

Bundan əlavə, fərqlənmə nişanının alınması üçün ərizə forması da Qərarla müəyyən edilmişdir.

Qərar 10 dekabr 2024-cü il tarixində qüvvəyə minmişdir.

## Mərkəzi Bank: Faiz dəhlizinin parametrləri

*18 dekabr 2024-cü il tarixində Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin "Faiz dəhlizinin parametrləri haqqında" Qərarı ("Qərar") qəbul edilmişdir.*

Qərara əsasən, uçot dərəcəsi 7.25% səviyyəsində dəyişilməz olaraq saxlanılmışdır. Əlavə olaraq, faiz dəhlizinin aşağı limiti 6.25% və yuxarı limiti isə 8.25% səviyyəsində dəyişilməz olaraq qalmışdır.

Uçot dərəcəsinin dəyişməz saxlanılması ilə bağlı qərar faktiki və proqnozlaşdırılan inflyasiyanın hədəf daxilində (4±2%) olması və makroiqtisadi meyillərin təhlili nəzərə alınmaqla qəbul olunmuşdur.

Əlaqə üçün:

Biz hazırkı icmalın sizin üçün faydalı olmasına ümid edirik. Daha ətraflı məlumat üçün aşağıdakı mütəxəssislər ilə əlaqə saxlamağınız xahiş olunur:




Arzu Hacıyeva
Partnyor, Vergi və hüquq xidmətləri
Tel: +994 (12) 490 7020
arzu.hajiyeva@az.ey.com





Məmməd Balacanov
Baş Menecer, Hüquq xidmətinin rəhbəri, Vergi və hüquq xidmətləri
Tel: +994 (12) 490 7020
mammad.balajanov@az.ey.com


EY | Daha yaxşı iş dünyasını qururuq

EY şirkəti, müştərilərə, əməkdaşlara, cəmiyyətə və planetimizə yeni faydalar təqdim etməklə və kapital bazarlarına inamı artırmaqla daha yaxşı iş dünyasını qurmağa çalışır.

Geniş məlumat bazası, süni intellekt və qabaqcıl texnologiyaların dəstəyi ilə əməkdaşlarımız müştərilərə gələcəyə inamla addımlamağa, bu günün və sabahın ən mühüm məsələlərinin həll yollarını tapmağa kömək edir.

EY şirkətinin mütəxəssisləri audit, konsaltinq, vergi, strategiya və əməliyyatlar daxil olmaqla fərqli sahələrdə çeşidli xidmətlər göstərirlər. Sənaye təcrübəsindən, qlobal miqyasda inteqrasiya olunmuş, multidissiplinar şəbəkədən və vahid ekosistemdə çalışan fərqli tərəfdaşlarımızın köməyindən faydalanaraq biz 150-dən çox ölkə və ərazilərdə xidmətlər təklif edirik.

Biz birlikdə gələcəyi formalaşdırmaq missiyamızı inamla yerinə yetiririk.

EY adı, hər biri müstəqil hüquqi şəxs olan Ernst & Young Qlobal Limited qlobal şirkətlər şəbəkəsinin bir və ya daha çox üzvünə aiddir. Ernst & Young Global Limited, üzvlərinin zəmanətləri ilə məhdudlaşan Böyük Britaniya şirkəti olaraq, müştərilərə xidmət göstərmir. EY şirkəti tərəfindən fərdi məlumatların toplanması və istifadə edilməsinə dair məlumatlar, habelə məlumatların qorunması haqqında qanunvericiliyə uyğun olaraq fiziki şəxslərin hüquqları ey.com/privacy səhifəsində təqdim edilir. EY firmaları yerli qanunlarla qadağan olunduğu ərazilərdə hüquq xidmətləri göstərmir. Daha ətraflı məlumat almaq üçün buraya müraciət edə bilərsiniz: ey.com


© 2024-cü il Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.
Bütün hüquqlar qorunur.



Hazırkı nəşr yalnız məlumat məqsədilə hazırlanıb və uçot, vergi, hüquqi və ya digər peşəkar məsləhətin əvəzi kimi nəzərdə tutulmur. Konkret məsləhətlər almaq üçün məsləhətçilərə müraciət edin.


ey.com/az